iki sahil

# Zərifə xanım Əliyeva ulu öndər Heydər Əliyevin sədaqətli dostu və etibarlı silahdaşı idi












Aprelin 29-da Bakı Dövlət Universitetində görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 96 illiyinə həsr edilmiş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə görkəmli alimin ömür yolundan bəhs edən videoçarx nümayiş etdirilib.

Sonra universitetin rektoru Elçin Babayev çıxış edərək tanınmış ictimai və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə Əliyevanın mənalı həyat yolu haqqında danışıb. Oftalmologiya elminə böyük töhfələr vermiş, elmi işləri, aldığı nəticələri ilə keçmiş SSRİ miqyasında və onun hüdudlarından kənarda tanınan akademik Zərifə Əliyevanın fəaliyyətinin müxtəlif dövrlərindən söz açıb. O bildirib ki, məhsuldarlığı, peşəkarlığı, sadəliyi və səmimiyyəti ilə insanların rəğbətini qazanmış Zərifə Əliyeva həm də oftalmologiya sahəsində elmi kadrların hazırlanmasında xüsusi xidmətlər göstərib, yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb.

O, həmçinin deyib: “Zərifə xanım Əliyeva müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Vaxtilə Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. O, Ulu Öndərimizə mənəvi dayaq, arxa olub”.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin aparıcı elmi işçisi, tibb üzrə fəlsəfə doktoru Nübar Haşımova Azərbaycanda oftalmologiya sahəsində ilk qadın akademik olaraq elmi kadrların hazırlanmasında Zərifə xanım Əliyevanın böyük xidmətlərinin olduğunu vurğulayıb. O bildirib ki, Zərifə Əliyevanın vaxtilə Azərbaycanda geniş yayılmış traxoma, o cümlədən tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, aldığı nəticələr Azərbaycan tibb elmini əhəmiyyətli dərəcədə irəli aparıb.

“Zərifə xanım Əliyeva geniş dünyagörüşü, dərin tədqiqatçılıq bacarığı, yüksək ziyalılığı ilə hamının rəğbətini qazanıb, bu fədakar alimin həyat və yaradıcılığı hər bir Azərbaycan vətəndaşı, bütün elm adamları və tibb işçiləri üçün həyat və mənəviyyat, kamillik, müdriklik məktəbidir. Zərifə xanım Əliyeva yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirirdi. O, xəstələrə xüsusi qayğı ilə yanaşır, problemlərini dinləyir, həllinə kömək göstərirdi. Oftalmoloq-alim həmişə deyirdi ki, həkim xəstə ilə dost olmalıdır. Bu zaman onun etdiyi müalicə daha uğurlu olacaq”, - deyə N.Haşımova qeyd edib.

N.Haşımova akademikin adını daşıyan Milli Oftalmologiya Mərkəzinin qabaqcıl tibb müəssisəsi kimi dünya miqyasında tanındığını deyərək, burada görkəmli alimin adına layiq böyük işlər həyata keçirildiyini də diqqətə çatdırıb.

Tədbirdə universitetin biologiya fakültəsinin III kurs tələbəsi, Zərifə Əliyeva adına təqaüdçü Məryəm Ramazanova və həmin fakültənin II kurs tələbəsi Cəvahir Hacıbabazadə çıxış edərək bildiriblər ki, hər bir azərbaycanlı gənc insanlara nur bəxş edən Zərifə xanım Əliyeva kimi savadlı, dünyagörüşlü olarsa, ölkəmiz daha böyük uğurlar qazanar.